

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 13 iyun 2026-cı il №40 (3042) https://mod.gov.az Qiyməti 30 qəpik


## Milli Qurtuluş Günü Azərbaycan tarixində dönüş nöqtəsidir

### Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev:

*“Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır”.*

Bəzi liderlər var ki, onlar dünyadan köçsələr də, buraxdıqları iz əsrlər keçsə belə unudulmaz olur. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev də belə şəxsiyyətlərdəndir. O, dövlətimizin qurucusu və əvəzolunmaz Dahi Lideridir.

Ulu Öndər Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin (KP MK) siyasi bürosu və şəxsən Baş katib Mixail Qorbaçovun yerinə yetirdiyi siyasi xəttə etiraz olaraq tutduğu vəzifələrdən 1987-ci ilin oktyabrında istefa etməsindən sonra erməni millətçiləri və onların sovet iqtidarında olan himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırdılar. Xalqımızın faciələri o gündən başladı. Əgər Dahi Şəxsiyyət hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər. Çünki Ulu Öndər Sovet İttifaqı KP MK siyasi bürosunda vəzifəsindən istefa etməmişdən əvvəl ermənilərin ərazi iddialarına qarşı çox sərt şəkildə etirazını bildirmiş və bu iddialara mane olmuşdu.



Müstəqilliyin ilk illərində AXC-Müsavat iqtidarının səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması, ölkədə fəaliyyət göstərən silahlı dəstələrin 1993-cü ilin əvvəllərindən başlayaraq törətdikləri qanunsuz əməllər, ölkəmizin ayrı-ayrı bölgələrində separatçılıq və parçalanma meyillərinin baş qaldırması ölkənin daxilində qardaş qırğınına və vətəndaş müharibəsinə zəmin yaratmışdı. Azərbaycan bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Dövlətimizin cənubunda ayrı, şimalında ayrı birliklər və qruplaşmalar yaranmış, ölkə xaos içində qalmışdı. Bir yandan da təcavüzkar erməni birləşmələrinin torpaqlarımızı işğal edərək irəliləməsi vəziyyəti çıxılmaz hala salmışdı.

(Ardı 3-cü səhifədə)

## Azərbaycan müdafiə naziri Pakistan tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistan İslam Respublikasının Silahlı Qüvvələrinin Quru Qoşunlarının Komandanı - Müdafiə Qüvvələrinin rəisi Feldmarşal Seyid Asim Munirə başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: “Pakistan Ordusuna məxsus Mİ-17 tipli helikopterin yaranmış texniki nasazlıq səbəbindən Müzəffərabad şəhəri yaxınlığında qəzaya uğraması və ekipaj üzvlərinin həlak olması barədə xəbər məni dərindən kədərləndirdi.

Baş vermiş aviaqəza nəticəsində həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.”

## Xalq-ordu birliyi milli gücün təməlidir

Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində, milli təhlükəsizliyinin təmin edilməsində və müstəqilliyimizin qorunub saxlanılmasında xalq-ordu birliyi mühüm əhəmiyyət kəsb edir. Tarixi təcrübə sübut edir ki, xalqın dəstəyini qazanan, onun inamına söykənən ordu hər zaman qüdrətli olur və qarşısına qoyulan tapşırıqları uğurla yerinə yetirir. Bu baxımdan Azərbaycan xalqı ilə ordumuz arasında formalaşmış sarsılmaz birlik dövlətimizin ən böyük nailiyyətlərindən biridir.

Hər bir ölkənin ordusu onun təhlükəsizliyinin qarantı, xalqın iradəsinin və dövlətin gücünün təcəssümüdür. Azərbaycan Ordusu da xalqımızın içindən çıxmış, onun etimadı və dəstəyi ilə formalaşmış milli ordudur. Bu gün ölkəmizdə mövcud olan xalq-ordu həmrəyliyi ilə qarşılıqlı etimad müstəqil Azərbaycanın qüdrətini şərtləndirən əsas amillərdəndir.

Azərbaycanın müstəqillik tarixində xalq-ordu birliyinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən siyasətin memarı Ümummilli Lider Heydər Əliyev olmuş, bu siyasi xətt sonradan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilərək yeni məzmun və keyfiyyət mərhələsinə yüksəldilmişdir.

### Heydər Əliyev - xalq-ordu birliyinin banisi

Müstəqilliyimizin ilk illərində ölkədə hökm sürən siyasi böhran, hakimiyyət uğrunda mübarizə və idarəetmədəki xaos ordunun formalaşmasına ciddi maneələr yaradırdı. Belə ki, ölkədə ayrı-ayrı silahlı dəstələrin mövcudluğu, vahid komandanlığın olmaması dövlətçiliyimiz üçün böyük təhlükə törədirdi. Belə bir dövrdə xalqın yanında olmaq, onun qeydinə qalmaq üçün güclü bir siyasətçinin hakimiyyətə gəlməsi prioritet məsələlərdən idi. Nəhayət ki, xalq öz seçimini etdi...

1993-cü ildə xalqın təkidli tələbi, arzusu, istəyi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev dövlətçiliyin xilası ilə yanaşı, nizami ordunun yaradılmasını da prioritet vəzifə kimi müəyyənləşdirdi. Onun uzaqgörən siyasəti nəticəsində ölkədə ictimai-siyasi sabitlik bərqərar edildi, qanunsuz silahlı birləşmələr zərərsizləşdirildi və Silahlı Qüvvələr vahid komandanlıq altında birləşdirildi.

Ulu Öndər Heydər Əliyev ordunu yalnız silah və texnika ilə deyil, ilk növbədə, mənəvi güclə qüdrətli olduğunu dəfələrlə vurğulayırdı. O, Azərbaycan Ordusunun xalqın ordusu olduğunu bildirərək, hər bir vətəndaşı dövlətin müdafiəsində fəal iştirak etməyə çağırırdı. Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi siyasət nəticəsində cəmiyyətdə hərbi xidmətə maraq artdı, vətənpərvərlik hissləri gücləndi, gənclərin orduya münasibətində köklü dəyişikliklər baş verdi.

(Ardı 3-cü səhifədə)

## Mavi sularımızın sarsılmaz qalxanı

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin bu gün dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinin hər addımda şahidi oluruq. Ordumuzun döyüş qabiliyyətinin artırılması istiqamətində aparılan uğurlu islahatların nəticəsidir ki, bu gün Azərbaycan Ordusu regionun ən güclüsüdür. Keçirilən genişmiqyaslı təlimlərdə hərbçilərimizin ən mürəkkəb tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməsi onların döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikasından istifadə etmək bacarığının yüksək səviyyədə olduğunu göstərir. Danılmaz faktdır ki, hər dövlətin varlığı, müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi onun hərbi gücündən, müdafiə qüdrətindən asılıdır. Zəngin maddi-texniki bazaya, müasir döyüş texnikasına, silah-sursata, yüksək döyüş qabiliyyətinə malik qüdrətli ordu hər bir xalqın fəxarət ünvanı, qürur mənbəyidir. Ordunun döyüş qabiliyyəti, gücü isə müharibələrdə və sülh şəraitində keçirilən müxtəlifmiqyaslı hərbi təlimlərdə sınaqdan keçirilir. Hər iki məqamda Azərbaycan Ordusu sınaqlardan başıuca çıxaraq, dünyanın ən güclü ordularından olduğunu dəfərlərlə sübut edib. Şanlı ordumuz Aprel döyüşlərindən və Günnüt zəfərindən başlanan Qələbə yolunu İkinci Qarabağ müharibəsi ilə tamamladı. Əməliyyatlar zamanı ordumuzun nümayiş etdirdiyi yüksək döyüş hazırlığı, şəxsi heyətin hünər və rəşadəti dünya hərb tarixinə qızıl hərflərlə yazıldı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev də bütün tədbirlərdə çıxışı zamanı tarixi qələbədən iftixarla danışır, hərbi qulluqçuların şücaətini yüksək qiymətləndirir. Bu şanlı Zəfəri şərtləndirən əsas amillərdən biri də ordumuzun bütün qoşun növlərinin yüksək peşəkarlıq nümayiş etdirməsi oldu. Döyüş meydanında qoşun növlərinin qarşılıqlı əlaqədə verilən tapşırıqları bacarıqla yerinə yetirməsi qələbəmizi təmin etdi. Bir sözlə, mütəmadi olaraq keçirilən təlimlərdə şəxsi heyətin qazandığı döyüş vərdişləri öz bəhrəsini verdi.




(Ardı 4-cü səhifədə)

# Azərbaycan müdafiə nazirinin Serbiyaya rəsmi səfəri











Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Serbiya Respublikasında rəsmi səfərdədir.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Azərbaycan nümayəndə heyəti Belqraddakı Taşmaydan parkında Ümummilli Lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələrini, eləcə də Milika Rakiçə həsr olunmuş memorial kompleksini ziyarət edib, önünə əkliller qoyub.

Sonra səfərin proqramına əsasən, general-polkovnik Zakir Həsənov Serbiya Respublikasının müdafiə naziri cənab Bratislav Qaşiç ilə görüşüb.

Protokola uyğun olaraq təşkil edilən rəsmi qarşılanma mərasimdə hər iki ölkənin müdafiə nazirləri fəxri qarovul dəstəsinin önündən keçiblər. Azərbaycan və Serbiya respublikalarının Dövlət himnləri səsləndirilib.

Görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb, regional təhlükəsizlik, həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilib.

Qeyd edək ki, səfər çərçivəsində müdafiə nazirinin Serbiyanın Buyanovats şəhəri yaxınlığında keçirilən "Platinum Wolf-2026" beynəlxalq taktiki təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirakı planlaşdırılıb.

* * *

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun Serbiyaya rəsmi səfəri davam edir.

Səfər çərçivəsində Serbiya Respublikasının Prezidenti cənab Aleksandar Vuçiç Azərbaycan nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Serbiyadakı fövqəladə və səlahiyyətli səfiri Kamil Xasiyevin də iştirak etdiyi görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlıq və müdafiə sənayesi sahəsində qarşılıqlı əlaqələrin inkişaf perspektivləri müzakirə edilib.

Görüşdən sonra müdafiə naziri Kruşevac şəhərində yerləşən "Slobodişte" Memorial Kompleksini ziyarət edib, İkinci Dünya müharibəsi qurbanlarının xatirəsinə inşa edilmiş abidə önünə əklil dəstəsi qoyaraq dərin hörmət və ehtiramını bildirib.

* * *

Hərbi qulluqçularımızın iştirakı ilə Serbiyanın Buyanovats şəhəri yaxınlığında "Platinum Wolf-2026" beynəlxalq taktiki təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və onun rəhbərlik etdiyi nümayəndə heyəti, eləcə də təlimə qatılan digər ölkələrin yüksək səviyyəli qonaqları iştirak ediblər.

Əvvəlcə beynəlxalq taktiki təlimin gedişatı, qarşıda duran tapşırıqları və mərhələləri barədə qonaqlara məlumat verilib, daha sonra təlim poliqonunda müxtəlif epizodlar praktiki olaraq yerinə yetirilib.

Komanda məntəqəsində təlimin gedişatını izləyən rəsmi nümayəndələr hərbi qulluqçularımızın peşəkarlığını yüksək qiymətləndiriblər.

Sonda təlimdə fərqlənənlərə mükafatlar təqdim olunub.

Qeyd edək ki, təcrübə mübadiləsinin aparılması, sülhməramlı əməliyyatların icrası zamanı tərəfdaş ölkələrin silahlı qüvvələri arasında qarşılıqlı uzlaşmanın gücləndirilməsi və hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədilə keçirilən təlimdə Amerika Birləşmiş Ştatları, Azərbaycan, Birləşmiş Krallıq, Bosniya və Herseqovina, İtaliya, Macarıstan, Monteneqro, Rumıniya, Serbiya, Şimali Makedoniya və Yunanıstandan olan hərbi qulluqçular iştirak ediblər.

















# Milli Qurtuluş Günü Azərbaycan tarixində dönüş nöqtəsidir

(Əvvəli 1-ci səhifədə)

AXC-Müsavat cütlüyünün dövlət idarəçiliyindən başı çıxmamaqla yanaşı, ordunun pərakəndə vəziyyəti və nizamsızlığı faktiki olaraq ölkəmizin bu ağır durumunu daha da çətinləşdirmişdi. Sosial vəziyyətdən isə heç danışmağa dəyməzdi. Yalnız öz hakimiyyətini saxlamağı düşünən AXC-Müsavat birliyi faktiki olaraq xalqı uçuruma aparırdı.

Müstəqilliyin ilk illərində sağlam düşüncənin səsinə qulaq asıb, böyük siyasi xadimi respublika rəhbərliyinə dəvət etsəydilər, Azərbaycan 20 Yanvar və Xocalı faciələrini yaşamaz, Laçın, Şuşa xəyanətlərinin qurbanı olmaz, ölkəmizin ərazisinin 20 faizi işğal edilməz, dövlət müstəqilliyimiz ağrılı və əzablı yollardan keçməzdi. Dövlət idarəçiliyinin səriştəsizliyi, medianın dünya ictimaiyyətinə ölkədə və cəbhədə baş verən məlumatları düzgün çatdıra bilməməsi, koordinasiyanın olmaması ölkəmizdə baş verən hadisələrin fərqli şəkildə bilinməsinə və beynəlxalq münasibətlərdə Azərbaycanın mövqeyinin zəifləməsinə rəvac verirdi.

Xarici diplomatik siyasəti olmayan bir dövlət daxili xaosu dəf edə bilməzdi. Qapalı ölkə rejimi bir dövləti sadəcə uçuruma apara bilərdi. Məhz bu siyasət Azərbaycanı, xalqımızın başını bəlalı bir dövrə gətirib çıxartmışdı.

1991-1993-cü illər ərzində dövlətin müstəqilliyinə və suverenliyinə təhdid yaradan bütün amillər ölkəmizdə yaşanmışdı. 1993-cü ildə artıq respublikada bütün sahələrdə böhran özünü göstərirdi. Dövlət əmlakının mənimsənilməsi artıq kütləvi xarakter daşıyırdı. Ölkənin ehtiyat ənzil fondu AXC hakimiyyətinin ilk aylarında satılıb mənimsənilmişdi. Ölkədə rəhbər vəzifələrə kriminal düşüncəli şəxslər gətirilir, mənəviyyatsızlıq baş alıb gedirdi. Hakimiyyət daxilində baş verən çəkişmələr və qruplaşmalar, bir tərəfdən də cəbhədə vəziyyətin gərginləşməsi... Bəsit insanların əlində olan "idarəçilik" prinsipi dövlətimizin daha da çıxılmaz vəziyyətə düşməsinə rəvac verirdi. Beləliklə, AXC-Müsavat cütlüyünün bir illik hakimiyyəti ölkədə xaos, özbaşınalıq və səriştəsizlik nəticəsində iqtisadiyyatın zəifləməsi və torpaqlarımızın işğalı ilə yadda qaldı.

Belə bir vəziyyətdə xalqın bir yolu var idi. Bu ağır durum və özbaşınalığı bir yolla dəf edə bilərdilər. Bu yol Ümummilli Lider Heydər Əliyevdən keçirdi. Xalq birlik içində Ulu Öndəri səslədi. AXC-Müsavat cütlüyü Dahi Liderə qarşı gəlsə də, xalqın təzyiqindən qorxub ondan imdad istədi. Ümummilli Lider Heydər Əliyevin ürəyi isə hər zaman Vətən eşqi ilə çırpınırdı. O, xalqın bu çağırışına biganə qalmadı.

Həmin dövr üçün Dahi Şəxsiyyət deyirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

1993-cü il iyunun 9-da xalqın və hakim dairələrin təkidi ilə Ulu Öndər Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı və ölkəmizin bu çətin vaxtında xilaskarlıq missiyasına başladı. Xalqın mütləq əksəriyyətinin səsini toplayan və Azərbaycan Respublikasının Prezidenti seçilən Ümummilli Lider mərasimdəki nitqində deyib: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".

Hakimiyyətə gəldiyi ilk vaxtlardan etibarən Azərbaycanın inkişaf strategiyası xəttini hazırlayan Ulu Öndər inkişafın reallaşmasının sabitlikdən və xalq həmrəyliyindən keçdiyini bildirirdi: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

Bu qiymətli fikirlər özü-özlüyündə respublikamızın dünənini və bugünkü müstəqil müasir Azərbaycanın inkişafını müqayisə etməyə imkan verir. Qısa müddət ərzində ölkəmizdə iqtisadi inkişaf və sosial rifahın yaxşılaşdırılması istiqamətində tədbirlər görüldü. Orduda ciddi dəyişikliklər və islahatlar həyata keçirildi.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ulu Öndərin məcburi köçkünlərlə olan çıxışlarının birində böyük inamla söylədiyi fikir bunu bir daha təsdiq edir: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik".

Bu fikirlər artıq o dövrdən xalqımızı əmin edirdi ki, dədə-baba torpaqlarımıza qayıdış uzaqda deyil. Dahi Şəxsiyyət Heydər Əliyevin beynəlxalq arenada qazandığı uğurlar və diplomatik irəliləyişlər Azərbaycanın gücünə güc qatdı.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu düşünülmüş və qətiyyətli mövqeyi uğurlu davam etdirdi. Ulu Öndər kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də həyatının ən əsas amalı torpaqlarımızın işğaldan azad edilməsi, ordumuzun hərbi potensialının müasirləşdirilməsi, infrastrukturun yenidən qurulması, sosial rifahın yaxşılaşdırılması idi.

Dövlətimizin başçısının Ulu Öndərin uğurlu daxili və xarici siyasət prioritetlərini davam etdirməsi və onları zənginləşdirməsi nəticəsində Azərbaycan dünyanın aparıcı dövlətləri ilə müqayisə olunacaq dərəcədə güclü iqtisadi inkişafa, müasir orduya malik oldu. Diplomatik baxımdan əlaqələrin bərpası və balanslaşdırılmış siyasət ölkəmizin güclü, bütün məsələlərə bağlı öz prinsipial mövqeyi olan, müstəqil siyasi iradə nümayiş etdirən dövlət kimi tanınmasını şərtləndirdi.

44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər Dahi Şəxsiyyət Heydər Əliyevin uğurlu siyasi kursunun davamının məntiqi nəticəsi oldu. Prezident İlham Əliyevin "Mən xoşbəxt insanam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan!" - fikirləri Ulu Öndər Heydər Əliyevin ən böyük arzusunun - torpaqlarımızın işğaldan azad olunmasının gerçəkləşməsidir.

Bu gün üçrəngli Azərbaycan Bayrağı Şuşada, Laçında və azad olunmuş digər yurd yerlərimizdə fəxarətlə dalğalanır. 1993-cü ilin 15 iyun tarixi - Milli Qurtuluş Günü Azərbaycan tarixində dönüş nöqtəsi oldu. Qələbənin təməli məhz həmin tarixi günlə qoyulmuşdu.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə bu gün azad olunmuş ərazilərimizdə bərpa-quruculuq işləri həyata keçirilir, "Böyük Qayıdış" layihəsinin icrasının davamı kimi məcburi köçkünlər illərdir didərgin düşdükləri öz dədə-baba torpaqlarına sevinclə qayıdırlar.

Xalqımız əmindir ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bundan sonra da dünyada müasir və qüdrətli ölkə kimi tanınacaq, yeni-yeni uğurlara imza atacaqdır.

**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

# Xalq-ordu birliyi milli gücün təməlidir



(Əvvəli 1-ci səhifədə)

Dünya şöhrətli siyasətçi Heydər Əliyevin təşəbbüsü ilə hərbi vətənpərvərlik tərbiyəsi dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrildi. Şəhid ailələrinə, müharibə veteranlarına və hərbi qulluqçulara göstərilən qayğı xalqla ordu arasındakı əlaqələrin daha da möhkəmlənməsinə xidmət etdi.

Bu gün xalq-ordu birliyinin ideoloji və mənəvi əsasları məhz Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik konsepsiyasına söykənir. Azərbaycan xalqı onun siyasi irsini yüksək dəyərləndirir və bu siyasətin nəticələrini ölkəmizin hərbi qüdrətində aydın şəkildə görür.

Müstəqil Azərbaycanın inkişafının yeni mərhələsində Prezident İlham Əliyev xalq-ordu birliyinin daha da gücləndirilməsini dövlət siyasətinin əsas istiqamətlərindən biri olaraq müəyyən etdi. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü islahatlar nəticəsində Azərbaycan Ordusu regionun ən güclü ordularından birinə çevrildi.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, Azərbaycan Ordusu xalqın sevgisi və etimadı ilə güclənir. Dövlət başçısının hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər də məhz bu məqsədə xidmət edir. Yeni yaşayış komplekslərinin tikilməsi, şəhid ailələri və döyüşçülərin sosial problemlərinin həlli, veteranlara göstərilən diqqət və qayğı xalq-ordu birliyinin möhkəmlənməsinə mühüm töhfə verib.

Bu gün hər bir Azərbaycan vətəndaşı ordunun uğurlarını öz uğuru kimi qiymətləndirir, hər bir hərbçi isə xalqın etimadını doğrultmağı özünə şərəfli vəzifə hesab edir. Bu qarşılıqlı inam və dəstək cəmiyyətimizdə milli həmrəyliyin ən parlaq nümunələrindən biridir.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi xalq-ordu birliyinin gücünü bütün dünyaya nümayiş etdirdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızın azadlığı uğrunda tarixi missiyanı şərəflə yerinə yetirdi.

44 gün davam edən müharibə dövründə xalqımız misilsiz birlik nümayiş etdirdi. Cəbhədə qəhrəmanlıq göstərən hərbçilərimiz arxa cəbhədə xalqın dəstəyini hiss edir, bu dəstək onların döyüş əzmini daha da artırırdı. Könüllülər, gənclər, ziyalılar, ictimai təşkilatlar və sadə vətəndaşlar qələbə naminə səfərbər olmuşdular.

Müharibə zamanı xalqla ordunun bir amal uğrunda birləşməsi Azərbaycan dövlətinin gücünü bütün dünyaya göstərdi. Məhz bu birlik nəticəsində işğalda olmuş rayon və kəndlərimiz azad edildi, ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində mühüm tarixi nailiyyətlər əldə olundu.

Vətən müharibəsində qazanılan tarixi Zəfər həm hərbi qələbə, həm də milli birliyin, vətənpərvərliyin və xalq-ordu həmrəyliyinin təntənəsi oldu.

Müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizlik məsələləri dövlətlərin qarşısında mühüm vəzifələr qoyur. İnformasiya müharibələri, regional gərginliklər və yeni təhlükələr xalq-ordu birliyinin əhəmiyyətini daha da artırır.

Bu gün Azərbaycan gəncləri vətənpərvərlik ruhunda tərbiyə olunur, dövlətçilik ənənələrinə sadiqlik nümayiş etdirirlər. Təhsil müəssisələrində, ictimai təşkilatlarda və kütləvi informasiya vasitələrində aparılan maarifləndirmə işi milli ruhun möhkəmlənməsinə xidmət edir.

Xalq-ordu birliyi həm müharibə dövründə, həm də sülh şəraitində mühüm əhəmiyyət daşıyır. Azərbaycan Ordusunun nüfuzunun yüksəldilməsi, hərb sahəsinin cəmiyyətdə hörmətinin artırılması və gənclərin hərbi xidmətə hazırlanması dövlətimizin müdafiə qabiliyyətinin daha da güclənməsinə şərait yaradır.

Beləliklə, Azərbaycanın qüdrətinin əsas mənbələrindən biri xalqla ordunun sarsılmaz birliyidir. Bu birliyin möhkəm təməlləri xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf etdirilir.

Bu gün Azərbaycan Ordusu xalqın güvəndiyi, qürur duyduğu və fəxr etdiyi bir qüvvədir. Xalq isə öz ordusunun arxasında möhkəm dayanaraq dövlətimizin təhlükəsizliyinin və müstəqilliyinin etibarlı təminatçısına çevrilib.

Tarixi Zəfərimiz, ərazi bütövlüyümüzün bərpası və dövlətimizin beynəlxalq nüfuzunun yüksəlməsi bir daha sübut edir ki, xalq və ordu bir yumruq kimi birləşdikdə qarşıya qoyulan ən böyük məqsədlərə nail olmaq mümkündür. Bu birlik Azərbaycanın bu gününün gücü, sabahının isə ən etibarlı təminatçısıdır.

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

# Mavi sularımızın sarsılmaz qalxanı

(Əvvəli 1-ci səhifədə)

Təkcə orduda deyil, bütün sahələrdə təcrübə və təlim-məşqlərsiz nəzəriyyəni təsəvvür belə etmək mümkünsüzdür. Bir işdə uğur qazanmağın açarı nəzəri biliklərin təcrübədə sınaqdan keçirilməsindədir. "Qələbə ona məxsusdur ki, o, qələbəyə hamıdan çox inanır və ona hamıdan yaxşı hazırlaşır", "Döyüşlərdə qələbə ən yaxşı hazırlıq görənlərin payına düşür", "Nizam-intizamlı və yaxşı hazırlanmış ordu dövlətin ən etibarlı dayağıdır", "Təlimdə nə qədər çox tər tökülərsə, döyüşdə bir o qədər az qan tökülər", "Qılınc döyüşdə itilənmir, döyüşdən əvvəl itilənir", "Dəmir odda bərkiyər, əsgər təlimdə" ... və digər bu qəbildən kəlamlar təcrübənin mahiyyətini açıq-aşkar bildirir. Ona görə də mütəmadi keçirilən belə təlim-məşqlər şəxsi heyətin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılmasında mühüm rol oynayır. Bir sözlə, təlimlər mühüm hərbi əməliyyat planı olaraq orduda şəxsi heyətin döyüş vərdişlərinin möhkəmlənməsində və hərbi qulluqçuların qələbəyə inamının güclənməsində əsas əhəmiyyət kəsb edir.



Ölkəmizin havadan, sudan, qurudan etibarlı müdafiəsini təmin edən ordumuzun müdafiə qüdrətinin daha da artırılması üçün məqsədyönlü addımlar atılır, mütəmadi olaraq müxtəlif mövzularda döyüş atışlı taktiki təlimlər keçirilir. Növbəti belə təlim Hərbi Dəniz Qüvvələrində (HDQ) keçirildi.

Cari ilin hazırlıq planına əsasən, Hərbi Dəniz Qüvvələrində (HDQ) Hərbi Hava Qüvvələrinin (HHQ), Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsinin və Fövqəladə Hallar Nazirliyinin (FHN) iştirakı ilə "Dənizdə və sahilyanı ərazilərdə kritik enerji infrastrukturuna təhdidlər zamanı müdafiə əməliyyatlarının aparılması" mövzusunda döyüş atışlı taktiki təlim keçirildi. HDQ-nin döyüş, döyüş təminatı və təminedici gəmilərinin, eləcə də dəniz xüsusi təyinatlı və dəniz piyada bölmələrinin cəlb edilməsi ilə keçirilən təlimin başlıca məqsədi döyüş fəaliyyətlərinin təşkili və qüvvələrin döyüşdə idarəolunması üzrə komandir və qərargahların bacarıqlarının təkmilləşdirilməsi, gəmilərin tək-tək və taktiki qrup tərkibində döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazırlıqlarının yoxlanılması idi.

Plana əsasən, təlimə cəlb olunan bölmələr "Həyəcan" siqnalı ilə qaldırılaraq tam döyüşə hazırolma dərəcəsinə gətirildi, əməliyyat düzülüşünə açılaraq cəmləşmə rayonlarına çıxarıldı.

HDQ-nin və DSX-nin Sahil Mühafizəsinin gəmi və katerləri qarşılıqlı fəaliyyətdə təyin olunmuş döyüş təyinatlı rayonlara dəniz keçidi edərək, dənizdə və sahildə yerləşən kritik infrastruktur obyektlərinin, sahilyanı ərazilərin mühafizəsi və müdafiəsinin təşkil olunması, habelə şərti düşmənin təxribat və hücum fəaliyyətlərinin qarşısının alınması, kəşfiyyat-diversiya qruplarının məhv edilməsi üzrə döyüş tapşırıqlarını yerinə yetirdilər. HHQ-nin helikopterlərinin hava dəstəyi ilə əraziyə endirilən dəniz xüsusi təyinatlıları və dəniz piyada bölmələri tərəfindən sahilyanı ərazilərə baxışın keçirilməsi, şərti düşmən tərəfindən ələ keçirilmiş adanın və gəminin azad olunması, gəmiyə qoyulmuş partlayıcı qurğuların zərərsizləşdirilməsi, eləcə də FHN-nin müvafiq qrupları ilə birgə axtarış-xilasetmə və gəmidə yanğının söndürülməsi, həmçinin yaralı və xəsarət alanların təxliyə edilməsi fəaliyyətlərini icra etdilər. Təlimdə gəmi taktiki qrupları tərəfindən patrulaparma fəaliyyətləri, təxribat və hücum cəhdlərinin qarşısının alınması, həmçinin hava, suüstü və sualtı vasitələrinin, bazalaşma məntəqələrinin məhv edilməsi üzrə döyüş tapşırıqları yerinə yetirildi. Bayraktar TB2 silahlı pilotsuz uçuş aparatı vasitəsilə hücum edən düşmənin suüstü hədəfləri məhv edildi. Cəlb olunan bütün növ qüvvə və vasitələrdən döyüş atışları icra olundu. Təlim iştirakçıları yüksək peşəkarlıq nümayiş etdirərək qarşıya qoyulmuş bütün tapşırıqları müvəffəqiyyətlə icra etdilər.

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və Müdafiə Nazirliyinin digər rəhbər heyəti HDQ-də keçirilən döyüş atışlı taktiki təlimin gedişini izlədilər. Təlimin mərhələləri üzrə yerinə yetirilən tapşırıqlar haqqında komandir heyətinin məruzələrini dinləyən general-polkovnik Kərim Vəliyev şəxsi heyətin peşəkarlığını, qarşıya qoyulmuş tapşırıqların icrasını müsbət qiymətləndirərək aidiyyəti üzrə müvafiq tapşırıqlar verdi.

Təlimin sonunda HDQ-nin, DSX-nin Sahil Mühafizəsinin və FHN-nin gəmi və katerlərinin birgə təntənəli keçidi oldu.

Təlim başa çatdıqdan sonra komanda-qərargah gəmisində öz təcrübəsini, bilik və bacarıqlarını şəxsi heyətə aşılayan 1-ci dərəcəli kapitan Emin Bəbəşovla söhbətləşdik. Zabit təlimdə iştirak edən bütün heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksək olduğunu deyərək, HDQ-nin bütün hərbi hissələrinin istənilən döyüş tapşırığının icrasına hər an hazır olduğunu bildirdi. Zabit keçirilən təlim haqqında məlumat verərək qeyd etdi ki, döyüş atışlı taktiki təlimdə əsas məqsəd Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus ərazi sularında və sahilyanı ərazilərdə təhdid zamanı şərti düşmənin məhv edilməsi üzrə döyüş tapşırıqlarının operativ yerinə yetirilməsinə, müxtəlif şəraitlərdə gəmilərin idarə olunmasına, qarşılıqlı əlaqənin təşkilinə, digər qoşun növləri və silahlı birləşmələr ilə uzlaşmanın və birgə fəaliyyətlərin təkmilləşdirilməsidir. "Həmçinin komandir heyətinin çevik qərar qəbuletmə qabiliyyətinin, bilik və bacarıqlarının təkmilləşdirilməsi, şəxsi heyətin praktiki vərdişlərinin artırılmasına yönəldilib. Təlimdə şəxsi heyət qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra edərək, yüksək döyüş hazırlığı nümayiş etdirdi. Ordu quruculuğunda təlimlərin rolu əvəzolunmazdır. Ən mühüm hərbi əməliyyat tədbiri olan təlimlər şəxsi heyətin döyüş vərdişlərinin möhkəmləndirilməsində, qələbəyə olan inamının formalaşmasında başlıca rol oynayır. Təlimlər hərbi qulluqçuların həyatında olduqca önəmlidir, çünki bu sınaq onların hərbi bilik və bacarıqlarını səriştəsini qiymətləndirməyə və daha da möhkəmləndirməyə şərait yaradır. Hərbi təlimlərdə əldə edilən yüksək nailiyyətlər döyüş meydanında qələbənin təminatçısı olur. Bu gün ölkəmizdə İkinci Qarabağ müharibəsində qazanılan təcrübələr nəzərə alınmaqla müxtəlif formalı hərbi təlimlər keçirilir, şəxsi heyətin döyüş hazırlığı səviyyəsi daim yüksəldilir. Təlimlərlə yanaşı, təsdiq olunmuş tədris planına HDQ-nin bütün bölmələrində keçirilən dərslərin yüksək səviyyədə və səmərəli təşkili komandirlər tərəfindən daim ciddi nəzarətdə saxlanılır. Şəxsi heyətin qazandığı nəzəri biliklər belə təlimlərdə öz sözünü deyir. Dərs və təlimlərə, eləcə də döyüş əməliyyatlarında müvəffəqiyyət qazanmaq üçün maddi-texniki baza da mühüm şərtdir. Bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğı nəticəsində bütün qoşun növlərində olduğu kimi, HDQ-nin də hər növ təminatı yüksək səviyyədədir. Keçirilən təlimdə də şahidi oldunuz ki, ölkəmizin dəniz sərhədlərini inamla qorumaq və baş verə biləcək hər hansı təxribatın qarşısını almaq üçün hər an hazırıq".









Təlim zamanı təsdiq olunmuş palana uyğun yerinə yetirilən fəaliyyətlərin koordinasiya edilməsində, bölmələrin fasiləsiz, çevik idarə olunmasında yüksək peşəkarlıq nümayiş etdirən 2-ci dərəcəli kapitan Ceyhun Kazımov təlimin hər iki mərhələsinin uğurla keçdiyini bildirdi. Belə təlimlərin şəxsi heyətin döyüş vərdişlərini möhkəmlətdiyini və mənəvi-psixoloji hazırlıqlarına da müsbət təsir göstərdiyini qeyd etdi. "Gəmi heyətləri, dəniz xüsusi təyinatlıları və dəniz piyada bölmələri qarşıya qoyulan bütün tapşırıqları bacarıqla yerinə yetirdilər. Bütün fəaliyyətlər plana uyğun vaxtında və dəqiq yerinə yetirildi. Təlim zamanı şəxsi heyətin verilən tapşırıqları bacarıqla yerinə yetirməyə can atması, əzmkarlıqları onların döyüş ruhunun yüksək olmasından xəbər verirdi. Yüksək döyüş ruhu isə vətənpərvərliyin təzahürüdür. Çünki vətənpərvərlik elə ali duyğudur ki, insana fədakarlıq, mübarizlik dövlət və dövlətçiliyə bağlılıq aşılayır. Bir sözlə, belə təlimlər şəxsi heyətə hərbi bilik və vərdişlər qazandırmaqla yanaşı, yüksək döyüş ruhu və vətənpərvərlik aşılayır".

Bu gün dünyada və regionda baş verən proseslər, aparılan müharibələr ingilis filosofu, tarixçi, siyasi xadim, yazıçı Frensis Bekonun dediyi "Dənizlərdə hökmranlıq edən, dünyanın sərvətlərinə və nəticə etibarilə dünyanın özünə də hökmran olar" sözlərinin mahiyyətini bir daha göstərir. Ölkəmizin geosiyasi mövqeyi, Xəzər dənizinin ölkəmizə mənsub olan hissəsində zəngin neft və təbii qaz ehtiyatlarına malik olması, beynəlxalq səviyyədə, milli maraqları naminə həyata keçirdiyi enerji layihələri, uğurlu daxili və xarici siyasəti, başqa dövlətlər ilə hərbi siyasi və iqtisadi sahələrdə əməkdaşlığı digər dövlətlərin də maraqlarını üzərinə çəkir. Bu da xüsusən regionda hərbi siyasi vəziyyətin gərginləşdiyi bir zamanda neft-qaz hasilatı infrastrukturlarının, adaların və sahil xəttinin mühafizə və müdafiəsi üzrə qabaqlayıcı tədbirlərin görülməsini daha da şərtləndirir. Bu gün Hərbi Dəniz Qüvvələrində Hərbi Hava Qüvvələrinin, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin və Fövqəladə Hallar Nazirliyinin iştirakı ilə döyüş atışlı taktiki təlimlərin uğurla keçirilməsi Xəzər dənizinin ölkəmizə mənsub olan hissəsində əlverişli əməliyyat rejiminin saxlanılaraq, neft-qaz hasilatı yataqlarının sualtı boru kəmərləri rayonlarının, platformalarının və sahil infrastruktur obyektlərinin müdafiə və mühafizəsinin yüksək səviyyədə təşkil olunduğunun sübutudur. Həmçinin ola biləcək hücum cəhdlərinin, təxribat-diversiya qruplarının sızmasının qarşısının qətiyyətlə alınacağının və istənilən döyüş əməliyyatını uğurla yerinə yetirməyə hazır və qadir olduğunun göstəricisi olur. Təlimi izləyən hər kəs bir daha əmin oldu ki, Azərbaycan Hərbi Dəniz Qüvvələri mavi sularımızın sarsılmaz qalxanıdır!

**Kapitan**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# Narkomaniya sadəcə bir fərdin problemi deyil, ümumbəşəri bir bəladır

***26 İyun - Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günüdür. Bu gün, 1987-ci ildə BMT Baş Assambleyası tərəfindən narkotiksiz beynəlxalq cəmiyyət qurmaq məqsədinə nail olmaq üçün qlobal fəaliyyəti və əməkdaşlığı gücləndirmək üçün rəmzi olaraq təsis edilib. Bu günün əsas məqsədi cəmiyyəti, xüsusilə də gəncləri narkotik asılılığının fiziki, psixoloji və sosial fəsadları barədə məlumatlandırmaqdır.***



Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı qlobal və regional səviyyədə hüquq-mühafizə tədbirlərini gücləndirmək, sağlam həyat tərzini təbliğ etmək və asılılıqdan əziyyət çəkən insanların reabilitasiyasına diqqət çəkmək bu fəaliyyətin mühüm istiqamətləridir. Narkomaniya sadəcə bir fərdin problemi deyil, ümumbəşəri bir bəladır. Bu bəlaya qarşı ən effektiv silah isə məlumatlı olmaq və vaxtında profilaktik və qabaqlayıcı tədbirlər görməkdir.

"Narkomaniya" yunan sözüdür. "Narko" donub qalmaq, "maniya" psixi pozğunluq deməkdir. Adından da göründüyü kimi bu xəstəlik cəmiyyət üçün çox qorxulu, təhlükəli, insanda sonsuz problemlər yaradan, onu lazımsız və keyfiyyətsiz bir məxluqa çevirən bəladır. Narkotikdən asılılıq insan sağlamlığına bərpaedilməz ziyan vurmaqla, ağır xəstəliyə - narkomaniyaya gətirib çıxarır. Cəmiyyətdə "ağ ölüm" kimi qəbul edilən, bəşər övladının baş bəlasına çevrilən, əhalinin, əsasən, gənc nəslin bir qismində sonsuz maraq doğuran, aludəçilik yaradan, müalicəsi olduqca çətin və uzun müddət tələb edən, insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran narkotik vasitələr, onların qanunsuz dövriyyəsi, istifadəsi, satışı, ümumiyyətlə, narkomanlıq ən ağrılı problemlərdən, qorxulu vərdişlərdən birinə çevrilmişdir.

Narkotik maddələr fiziki qüvvəni tükəndirir, bədənin çəkisini birdən-birə azaldır, ümumi zəhərlənmə baş verir və beləliklə də, keçici xəstəliklərin sürətlə yayılmasına səbəb olur. Bu maddələrin bir çoxu şprislə qana ötürüldüyündən və narkoman qrupları daxilində eyni şprisdən istifadə edildiyindən onlar arasında bir çox xəstəliklərə tutulan insanlar çoxdur.

Belə bir sual meydana çıxa bilər - valideynlər övladlarının və ya qadınlar həyat yoldaşlarının narkotik istifadəçisi olduğunu necə bilsinlər? Çox ailələr övladının aludəçi olmasını bir-iki il keçdikdən sonra anlayırlar. Valideyn övladının narkotik istifadəçisi olduğunu bildikdə isə artıq gec olduğundan həkim üçün də müalicə çətinləşir. İndiki müasir narkotik vasitələri gəncləri daha tez və sürətlə dəyişir. Bəzi hallarda hətta peşəkar həkim belə uşağın narkotik istifadəçisi olduğunu hiss edə bilmir. Narkotik istifadəçisi olan şəxsin davranışı getdikcə dəyişir. Əvvəl marağında olanlara daha az maraq göstərir. Əsəbi, kobud olur, yata bilmir, göz bəbəkləri qızarır, genişlənir ya da yığılır, çəki itirir. İnsan öz mənəvi dəyərlərini, iradəsini və özünə hörmətini itirir. Həyatının yeganə məqsədi nə yolla olursa-olsun, növbəti doza əldə etmək olur. Bəzən bu yol yalançılıqdan, oğurluqdan keçir.

Bütün dünyada bununla bağlı heç də asan olmayan mübarizə getsə də, insanlıq üçün böyük bəla olan narkomaniya hələ də yayılmaqda davam edir. Bu gün dünyada narkomaniyanın gəncləşməsi prosesi gedir. Narkotik maddə alverçiləri uşaqların çox olduğu yerlərdə həmin məhsulları təklif edirlər. Pul qazanmaq naminə onlar insanları, xüsusilə uşaqları ölümə aparan bu pis vərdişə alışdırırlar.

Narkotik maddələrin gənc nəsillər arasında daha tez yayılması təhlükəsini nəzərə alaraq, dünyanın bir çox ölkələri "Narkotiksiz gələcək naminə" milli proqramlar qəbul edir. Bu proqrama təhsil ocaqlarında, hüquq-mühafizə orqanlarında, müəssisə və təşkilatlarda narkomaniyanın ziyanı haqqında maarifləndirmə kampaniyaları daxildir.

Belə ki, narkomaniya bəlası ölkəmizdən də yan keçməyib. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra dövlət quruculuğu, siyasi, iqtisadi, sosial və başqa sahələrdə gedən inkişaf və aparılan islahatlar narkotik vasitələrin, psixotrop maddələrin və onların qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə problemlərinin həlli üçün dövlətin, cəmiyyətin və qeyri-hökumət təşkilatlarının səylərinin birləşdirilməsini, beynəlxalq əlaqələrin genişləndirilməsini və kompleks mübarizəni zəruri etmişdir. Aidiyyəti qurumlar tərəfindən mütəmadi olaraq külli miqdarda narkotikin ölkəyə gətirilməsinin qarşısı alınır.

Ölkəmiz narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəni tənzimləyən, beynəlxalq hüquq normalarını tam və sistemli şəkildə əks etdirən Birləşmiş Millətlər Təşkilatının Konvensiyalarına qoşulmuş və bu cinayətlərə qarşı mübarizədə üzərinə mühüm vəzifələr götürmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2013-cü il tarixli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir.

Dövlət Proqramının məqsədi ölkədə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğat, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması, narkomanlığa düçar olmuş şəxslərin müalicə edilməklə sağlam həyata qaytarılması, müalicə-bərpa sahəsindəki fəaliyyətin müasir dövrün tələblərinə uyğunlaşdırılması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, cəza tədbirlərinin səmərəliliyinin öyrənilməsi üçün elmi və praktik araşdırmaların aparılması, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və digər genişmiqyaslı məsələlərdən ibarətdir.

Son illər respublikamızda bu istiqamətə diqqət xeyli güclənmiş, cavabdeh olan dövlət orqanları ilə yanaşı, ictimai təşkilatların, qeyri-hökumət təşkilatlarının da fəallığı nəzərəçarpacaq dərəcədə artmışdır. Bunu hüquq-mühafizə orqanlarının narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, habelə digər bihuşedici maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin vəziyyətini əks etdirən statistik məlumatları da əyani şəkildə göstərir.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev 1996-cı il avqustun 26-da imzaladığı Fərmanla narkomanlığa və narkotik vəsitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi elan etmiş, bununla da cəmiyyət və dövlət üçün təhlükəli olan bu problemin həlli məqsədi ilə dövlət səviyyəsində həyata keçirilən tədbirlər keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bu fərman əsasında ölkəmizdə 2000-ci ilədək narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Ümummilli Proqram hazırlanmış, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmışdır.

28 iyun 2005-ci ildə isə Milli Məclis tərəfindən "Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Qanun qəbul olunmuşdur. Bu qanunun başlıca əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanda narkotik tərkibli bitkilərin kultivasiyası, narkotik vasitələrin və psixotrop maddələrin istehsalı, dərman preparatlarının və xammalın hazırlanması qanunla qadağan edilmişdir. İstehsalçılar maddələri rəngbərəng həblər (məsələn: "konfet" formasında) şəklində hazırlayaraq sosial şəbəkələr vasitəsilə yayır, gəncləri tələyə salırlar.

Bütün bunlara baxmayaraq, qlobal həyatımızın hazırkı mürəkkəb şəraitində narkomaniyaya qarşı mübarizədə cəmiyyətin bütün zümrələri, ayrı-ayrı şəxslər fərdi və birgə mübarizə aparmalı, bu cür təhlükəli təzahürlərə qarşı barışmaz mövqe tutmalıdırlar. Narkomanlıq kimi dəhşətli xəstəlik dinindən, dilindən, irqindən, sosial vəziyyətindən, mənşəyindən, vəzifəsindən və s. asılı olmayaraq hamı üçün eyni dərəcədə təhlükəlidir, qorxuludur. Çünki narkomaniya cinayətkarlığa, zorakılığa və korrupsiyaya rəvac verir, immun çatışmazlığı sindromunun sürətlə artmasına təkan verir, sosial-iqtisadi inkişafı ləngidir, ailələri dağıdır, ömürləri yarımçıq bitirir, cəmiyyəti sosial partlayışlara gətirib çıxarır. Bunun üçün də "ağ ölüm" adlandırılan bu təhlükəli bəlaya qarşı mübarizə hamının, hər kəsin başlıca vəzifəsinə çevrilməli, cəmiyyətin hər bir üzvünün birgə fəaliyyət obyekti olmalıdır.

Gənclər arasında yayılan bu ağ ölüm dövlətin milli təhlükəsizliyi və gələcəyi üçün ciddi siqnaldır. Narkomaniyaya qarşı mübarizə mülki cəmiyyətdə olduğu kimi, dövlətin onurğa sütunu sayılan və gənclərin çox olduğu hərbi sahədə də ən yüksək səviyyədə aparılmalıdır. Ordu dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün və təhlükəsizliyinin əsas təminatçısıdır. Hərbi sahədə narkomaniyaya yer yoxdur və ola da bilməz. Çünki əlində silah tutan, Vətəni qoruyan hərbi qulluqçunun fiziki və psixoloji sağlamlığı ən yüksək səviyyədə olmalıdır. Hərbi xidmət zamanı çağırışçılar ciddi yoxlanışdan keçirlər. Narkotik istifadəçisi olan və ya buna meyli olan şəxslərin ordu sıralarına daxil olmasının qarşısı ilkin mərhələdə alınır. Hərbi hissələrdə şəxsi heyət planlı və qəfil müayinələrdən, toksikoloji analizlərdən keçirilir.

Hərbi hissələrdə şəxsi heyətlə müntəzəm olaraq vətənpərvərlik, milli-mənəvi dəyərlər mövzusunda söhbətlər aparılır, narkomaniyaya qarşı maarifləndirici sənədli filmlər nümayiş olunur.

Narkotik asılılıq və onun yaratdığı ağır fəsadlar, həqiqətən də, həm insanın özü, həm də ailəsi üçün çox böyük, bəzən "sağalmaz" kimi görünən bir bəladır. Bu problem sadəcə fərdin sağlamlığını yox, onun bütün həyatını, sosial əlaqələrini və gələcəyini məhv edir. Narkotik maddələr beyindəki dopamin (həzz) balansını tamamilə pozur. Zamanla beyin hüceyrələri ölür, yaddaş, məntiq, idrak funksiyaları sıradan çıxır. Daxili orqanların sıradan çıxması ürək çatışmazlığı, insult, qaraciyər sirrozu və böyrək çatışmazlığı isə narkotik istifadəçilərində tez-tez rast gəlinən hallardır. Həmçinin narkotiklər Hepatit B və C, QİÇS kimi ölümcül virusların sürətlə yayılmasına da səbəb olur. Doza həddinin aşılması əksər hallarda ani və geri dönüşü olmayan ölümlə nəticələnir.

Narkomaniya "Sağalmaz dərd" kimi görünsə də, müasir tibb və psixologiya sübut edir ki, bu müalicə oluna bilən xroniki bir xəstəlikdir. Çox vaxt gənclər narkotikə sadəcə bir dəfə sınamaqla "mən asılı olmaram", "bir dəfə danda baxım" fikri ilə və ya dost mühitinin təzyiqi ilə başlayırlar.

Gənc yaşda həyatı narkotiklə korlamaq bir insanın öz gələcəyini, arzularını və potensialını öz əlləri ilə yox etməsi deməkdir. Gənclik dövrü insanın enerjisini, öyrənmə və inkişaf qabiliyyətinin ən yüksək olduğu dövrdür. Narkotik maddələr isə bu enerjini daxildən gəmirir.

Müasir dövrdə insanların, xüsusilə də yeniyetmə və gənclərin informasiya aldığı əsas mənbələr televiziya və sosial media platformalarıdır. Bu platformaların narkomaniya ilə mübarizədə və təəssüf ki, bəzən onun yayılmasında oynadığı rol danılmazdır. Televiziya kütləvi informasiya vasitəsi kimi cəmiyyətin rəyini formalaşdırır. Bu, həm problemin cəmiyyətdə nə qədər böyüdüyünü göstərir, həm də insanların artıq gizli yox, açıq şəkildə həll yolları axtardığını göstərir. Televiziyada narkomaniya mövzusu adətən iki fərqli formada təqdim olunur. Dövlət və özəl kanallarda narkomaniyanın zərərlərindən bəhs edən verilişlər, həkimlərin və psixoloqların rəyləri, narkotik asılılığından əziyyət çəkən insanların acınacaqlı hekayələri nümayiş etdirilir. Müxtəlif müstəqil bloqqerlər, psixoloqlar, reabilitasiya mərkəzləri və keçmiş narkotik istifadəçiləri tərəfindən çoxsaylı faydalı videolar hazırlanır. İnsanlar "Narkotikdən necə qurtulmalı", "Asılılıq simptomları nələrdir" kimi suallara gizli və anonim cavab tapa bilirlər.

Gəncləri sadəcə qorxutmaq, "narkotik öldürür" demək bəzən əks-təsir verir, çünki yeniyetmələrdə maraq hissi güclüdür. Onlara narkotikin insan beynini necə qula çevirdiyi elmi və məntiqi yollarla izah olunmalıdır. Qorxu deyil, şüurlu imtina hissi yaradılmalıdır. Medianın üzərinə düşən əsas missiya isə reytinq və ya baxış sayı qazanmaq yox, sağlam bir nəslin formalaşmasına xidmət etmək olmalıdır. Gənclər enerjilərini xərcləməyə faydalı platformalar tapmalıdırlar.

**Sevda AŞIROVA**
**"Azərbaycan Ordusu"**

*Heç kim unudulmur*

# “Son nəfəsədək Vətən” adlı kitabın təqdimat mərasimi keçirildi





Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində şəhid mayor Elnur Hacıyevin əziz xatirəsinə həsr olunan "Son nəfəsədək Vətən" adlı kitabın təqdimat mərasimi keçirildi.

Tədbirdə Milli Müdafiə Universitetinin nümayəndələri, şəhidin ailə üzvləri, döyüş yoldaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbir açıq elan edildikdən sonra şəhid mayor haqqında iştirakçılara məlumatlar verildi. Bildirildi ki, Hacıyev Elnur Yaqub oğlu 1979-cu il iyunun 12-də Ucar şəhərində anadan olub. 1986-1996-cı illərdə Ucar şəhəri 5 nömrəli tam orta məktəbdə, 1997-2002-ci illərdə isə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində ali hərbi təhsil alıb. Elnur Hacıyev 2002-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət edib.

Mayor Elnur Hacıyev 2020-ci il sentyabrın 27-də Ermənistanın genişmiqyaslı təxribatlarına cavab olaraq başlayan əks-hücum əməliyyatında iştirak edib. Oktyabrın 17-də Elnur Hacıyev Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ucar rayon Şəhidlər xiyabanında dəfn olunub.

Çıxış üçün ilk söz kitabın elmi redaktoru, Milli Müdafiə Universiteti rektorunun elm və təhsil üzrə müavini, professor general-mayor Arif Həsənova verildi. Tədbir iştirakçılarını salamladıqdan sonra general-mayor A.Həsənov bildirdi ki, şəhidlərin xatirəsi bizim üçün hər zaman əzizdir. "Şəhid olana qədər hər bir oğul ana-atasının, doğmalarının əzizidir. Ancaq indi onlar bütün Azərbaycanın gözbəbəyidirlər. Biz şəhid mayor Elnur Hacıyevlə döyüş yoldaşı olmuşuq. Mən onu cəsur və mərd insan kimi tanımışdım. İndi isə o, hamının yaddaşında bu keyfiyyətlərlə iz qoyaraq ən uca zirvəyə ucaldı", - deyə general-mayor A.Həsənov vurğuladı.

Daha sonra Milli Müdafiə Universiteti rektorunun müavini, professor İbrahim Adnan Əftar şairin məşhur misraları ilə başladı:

Bayraqları bayraq yapan üstündəki qandır,
Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir...

Bir vaxtlar şəhidlərimizin ruhu önündə başımız önə əyilmişdi. Ancaq 44 günlük Vətən müharibəsindən sonra düşməndən bütün şəhidlərimizin qisası alındı, onların qanları yerdə qalmadı. Belə mərd analar olduqca onların yetişdirdiyi cəsur oğullar hər zaman yurdlarına canı bahasına da olsa sahib çıxacaqlar", - deyən natiq çıxışını tamamladı.

Sonda şəhidin anası Hicran Hacıyeva övladı haqqında xatirələrini bölüşdükdən sonra kitabın ərsəyə gəlməsində əziyyəti olan Milli Müdafiə Universitetinin əməkdaşlarına və kitabın müəllifi Yeganə Əliyevaya öz təşəkkürünü bildirdi.

Qeyd edək ki, şəhid mayor Elnur Hacıyev Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Tədbirin sonunda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən qəhrəmanlığı və vətənpərvərliyi tərənnüm edən mahnılar səsləndirildi.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**







# Şəhid Ayaz İbrahimovun xatirəsi yad edilib





Babək rayonunda Vətən müharibəsi şəhidi, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ayaz Sultan oğlu İbrahimovun əziz xatirəsi ehtiramla yad edilib. Tədbirdə şəhid ailələri, müharibə iştirakçıları, dövlət və hökumət nümayəndələri, həmçinin güc strukturlarının əməkdaşları iştirak ediblər.

Əvvəlcə şəhidimizin məzarı ziyarət olunub, üzərinə gül dəstələri düzülərək ruhuna dualar oxunub. Sonra tədbir iştirakçılarına Ayaz İbrahimovun həyatı və keçdiyi döyüş yolu barədə ətraflı məlumat verilib.

Babək rayon İcra Hakimiyyəti başçısının müavini Səbinə Abbasova çıxışında bildirib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik siyasətinin təməlində Vətənə sədaqət, milli birlik və vətəndaş həmrəyliyi dayanır. "Bu strateji xətt bu gün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

Tədbirdə şəhid valideynləri adından "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri Mayis Gülməmmədov və şəhid anası Mehbarə Rzayeva çıxış ediblər. Onlar 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərin xalq-ordu-dövlət birliyinin parlaq təcəssümü olduğunu vurğulayıblar. Qeyd olunub ki, məhz bu sarsılmaz birlik, Azərbaycan Ordusunun rəşadəti, Ali Baş Komandanın qətiyyətli rəhbərliyi, şəhidlərimizin və döyüşlərdə yaralananların fədakarlığı sayəsində torpaqlarımız işğaldan azad edilib, ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa olunub.

Görüşdə vurğulanıb ki, Ayaz İbrahimov kimi qəhrəman Vətən övladlarının göstərdikləri şücaət xalqımızın qəhrəmanlıq salnaməsinin şanlı səhifələrini təşkil edir. Onların əziz xatirəsi daim uca tutulur, keçdikləri döyüş yolu isə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm örnəkdir.

Daha sonra şəhidin atası Sultan İbrahimov çıxış edərək ailəsinə göstərilən dövlətin diqqət və qayğısına görə minnətdarlığını ifadə edib. Anım tədbirindən sonra şəhidin əziz xatirəsinə ehsan süfrəsi təşkil olunub.

Şəhid əsgər Ayaz Sultan oğlu İbrahimov 10 iyun 1998-ci ildə Babək rayonunun Məmmədrza Dizə kəndində anadan olub. Ailənin tək qardaşı olan Ayaz 2004-2015-ci illərdə Məmmədrza Dizə kənd tam orta məktəbində təhsil alıb.

2016-2017-ci illərdə müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Azərbaycan Ordusunun sıralarında fəaliyyətini davam etdirib.

Vətən müharibəsi zamanı Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edib və döyüş tapşırığını yerinə yetirərkən 2020-ci il noyabrın 10-da qəhrəmancasına şəhid olub.

Şəhadətindən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Suallar:**

**1. Müstəqil Azərbaycan dövlətçiliyinin banisi.**

**2. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır.**

**Mövzu:** **Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır.**

### Müstəqil Azərbaycan dövlətçiliyinin banisi

Müasir Azərbaycan tarixinin parlaq siması, qüdrətli şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin siyasi obrazı xalqımızın dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsidir. Milli özünüdərkin ən yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası da Azərbaycanın yeni tarixində məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımız tarix boyu mənimsədiyi dövlətçilik ənənələrini, milli dəyərləri, nailiyyətləri, ali keyfiyyətləri məhz Ulu Öndər epoxasında təkmilləşdirərək dayanıqlı müstəqil dövlətini qurmuş, millət kimi mövcudluğunu, özünü idarə etmək bacarığını yüksək səviyyədə nümayiş etdirmişdir. Ulu Öndər müasir dövlətimizin ideoloji-siyasi əsaslarını tarixi irs və milli-mənəvi dəyərlər zəminində yaradaraq praktiki surətdə gerçəkləşdirmiş dahi strateq kimi xalqımızın əbədi və tükənməz sevgisini qazanmışdır.

Ulu Öndərə layiq olduğu qiyməti vermək, onun Vətən və xalq naminə göstərdiyi misilsiz xidmətləri və fədakarlıqları obyektiv dəyərləndirmək böyük məsuliyyət tələb edir. Çünki Ulu Öndər Heydər Əliyev fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyinə xidmət etmiş, Azərbaycan torpağının, Azərbaycan dövlətinin, Azərbaycan xalqının mənafeyi və bütövlüyü uğrunda fədakarlıqla çalışmış, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, demokratiyanın genişləndirilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün mümkün ola bilən hər bir işi görmüşdür.

Heydər Əliyevin Ulu Öndərə çevrilməsini təmin edən başlıca amillərdən biri onun istənilən siyasi şəraitdə xalqın, dövlətin problemlərinə biganə qalmamasıdır. SSRİ dövlət təhlükəsizlik sistemində sıravi işçidən rəhbər vəzifəyə kimi yüksəlmiş ilk azərbaycanlı olan Ulu Öndər Heydər Əliyev sovet rejiminin sərt qanunlarına baxmayaraq, Azərbaycana rəhbərlik etməyə başladığı 1969-cu ildən respublikamızda böyük iqtisadi, elmi yüksəlişlə yanaşı, ədəbi-mədəni inkişafa və müstəqil düşüncəyə yol açmışdır. Sovet rejiminin ideoloji məsələlərə xüsusi həssaslıqla yanaşdığı vaxtlarda Azərbaycanın milli maraqları, mədəni-mənəvi dəyərlərinin qorunması üçün mümkün olan bütün işləri görmüşdür. Heç nədən çəkinməyərək əzmkar fəaliyyəti ilə xalqının tarixi keçmişi, milli kimliyi, dili, mədəniyyəti, adət-ənənəsi və düşüncə sistemi barədə dolğun təsəvvürlər formalaşdırmışdır. Milli rəmzlərə və atributlara həssas olan Ulu Öndər Azərbaycan SSR-in yeni Konstitusiyası qəbul edilərkən Azərbaycan dilinin bu ali sənəddə rəsmi dil kimi göstərilməsinə nail olmuşdur. Bu günün zirvəsindən baxdıqda, həmin illərdə Ulu Öndərin xalqının hüquqlarını qoruyan, haqqı nahaqqa verməyən, milliləşdirmə siyasəti aparmaqla həm də ziyalı elitasını sərt təqiblərdən qoruyan fenomenal lider keyfiyyətləri daha qabarıq sezilir. Azərbaycan xalqı Ulu Öndərin rəhbərliyi sayəsində yüksək iradə göstərməklə milli yaddaşını, mənəvi, əxlaqi dəyərlərini, tarixi dövlətçilik ənənələrini qorumaq əzmini toplaya bilmişdir.

Xalqımızın dahi oğlunun sovet dövründə Azərbaycan üçün gördüyü bütün işlər böyük gələcəyə hesablanmışdı və bu potensial müstəqillik bərpa edildən sonra ölkəmizin başlıca dayaqlarını təşkil etdi. Belə ki, ötən əsrin 70-ci illərindən başlayaraq Ulu Öndərin rəhbərliyi ilə respublikada həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi potensialın formalaşdırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək gələcək müstəqilliyin təmin olunması üçün zəmin və bünövrə hazırlamışdır. Elə bir tarixi bünövrə yaradılmışdı ki, onun möhkəm dayaqları üzərində gələcəkdə müstəqil Azərbaycanın qurulması, yeni tarixinin əsasının qoyulması labüd idi. Tarixi gedişatın nəticəsi olaraq XX əsrin 90-cı illərində müstəqil Azərbaycanı yaratmaq missiyasını da Ulu Öndər layiqincə yerinə yetirdi. Xalqımız dövlət müstəqilliyini bərpa etdikdən sonra yaşamağa məhkum olduğu böhran və tənəzzül günlərində məhz Ulu Öndər Heydər Əliyev dühasının sayəsində xilas oldu, azadlığa qovuşdu.

Müstəqilliyimizin bərpasından sonrakı ilk dövrü - 1991-1993-cü illər tariximizə xaos, anarxiya, böhranın dərinləşdiyi, dövlətin parçalanma, millətin məhvolma ərəfəsində olduğu məşəqqətli dövr kimi həkk edilib. SSRİ-nin dağılması ilə elan edilən müstəqillik Azərbaycan xalqına azad ölkənin vətəndaşı olaraq qürur duymaq hissindən əvvəl torpaqlarımızın işğala məruz qalması kimi milli faciə, bundan əlavə siyasi təlatümlər, hakimiyyət ambisiyaları nəticəsində meydana çıxan çaxnaşmalar, itkilər gətirmişdi. Kağız üzərində olan müstəqilliyi dövlətin mövcudluğu timsalında təsbit etmək, onu möhkəmləndirmək lazım idi, lakin o vaxt iqtidarda olanlar yalnız öz mövqelərini möhkəmləndirməklə məşğul idilər. Xalqın iqtisadi, sosial qayğılarını, ərazi itkisi nəticəsində əmələ gələn problemləri həll etmək əvəzinə hələ kövrək olan dövləti yeni problemlər məngənəsinə salır, ordu qurmaq əvəzinə, qanunsuz silahlı quldur dəstələri təşkil edir, ictimai sabitlik yaratmaqdansa, bu sabitliyi təmin edəcək dövlət strukturlarını, daxili işlər orqanlarını kriminal elementlərə çevirir, iqtisadi islahatlar aparmaq əvəzinə, sovet dövründən qalmış müəssisələri talan edirdilər. Nəticədə xalqın güzəranı böhranın ən son həddinə qədəm qoymuşdu.

Azərbaycan xalqı 1993-cü ilin oktyabrında Ulu Öndər Heydər Əliyevə etimad göstərərək onu özünün layiqli rəhbəri seçdi. Azərbaycan xalqı məhz Ulu Öndərin adı ilə bağlı olan düzgün siyasi seçim əsasında xaosdan tərəqqiyə keçid mərhələsinin bünövrəsini qoydu. İlk növbədə, qısa zaman kəsiyində ölkəni bir neçə il ərzində taqətdən salan hərc-mərcliyə qətiyyətlə son qoyuldu, sabitlik və əmin-amanlıq təmin edildi, erməni təcavüzünün Azərbaycanın dərinliklərinə irəliləməsinin qarşısı alındı və Azərbaycan dövlətçiliyini ağır faciələrdən xilas etdi.

Ulu Öndərin müstəqil ölkəmizə rəhbərlik etdiyi 10 il Azərbaycanın ən yeni tarixinə sosial-iqtisadi yüksəliş dövrü kimi yazıldı. Bu dövr ərzində Ulu Öndər Heydər Əliyev ölkəmizi təhlükə və çətinliklərdən qurtararaq ardıcıl inkişaf yoluna çıxardı. Bu illər ərzində sosial-iqtisadi inkişafa geniş meydan açıldı, ölkəyə xarici sərmayələr cəlb edildi, böhran həddində olan iqtisadiyyatımızda, sənayedə uğurlu islahatlar nəticəsində tərəqqiyə doğru inamlı dönüş yarandı. Sosial islahatlar həyata keçirildi, səfalət həddində yaşayan vətəndaşlarımızın sosial güzəranı əsaslı şəkildə dəyişdi, onların həyat tərzi yüksəldi, əhalinin maaşlarının, təqaüdlərinin, müavinətlərinin mərhələli artımı davamlı hal aldı. Dövlətimiz dünya birliyində layiqli yerini tutdu. Müstəqil ölkəmizin beynəlxalq birliyin tamhüquqlu üzvünə çevrilməsi, Azərbaycan həqiqətlərinin dünyada tanıdılması məhz Ulu Öndərin xidmətləri sayəsində mümkün olmuşdur. Yalnız yenidən siyasi hakimiyyətə qayıdandan sonra Azərbaycan özünün geosiyasi imkanlarını gerçəkləşdirə bilmiş, ölkənin beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qalxmışdır. Ulu Öndərin gərgin diplomatik səyləri və şəxsi nüfuzu sayəsində müstəqil respublikamız bir sıra nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən, Avropa Şurasına üzv qəbul edilmiş və beynəlxalq aləmdə öz mövqeyini möhkəmləndirmişdir. Azərbaycan Ordusunun formalaşdırılması, Azərbaycan Respublikasının nizami Silahlı Qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü, orduda kütləvi fərarilik hallarına son qoyuldu, hərbi intizam möhkəmləndirildi. Bu gün Azərbaycan dövlətinin suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir olan orduya malik olması Ulu Öndərin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərindən biri sayıla bilər.

### Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır

Ulu Öndər 2003-cü il prezident seçkiləri ərəfəsində Azərbaycan xalqına tarixi müraciətində İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü belə bildirdi: "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Dövlətimizin başçısı İlham Əliyev isə öz gücünü məhz Ulu Öndər Heydər Əliyevdən aldığını etiraf edir. "Azərbaycanda bütün işlərin təməlində Heydər Əliyev amili, Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik. Öz milli liderimizin vəsiyyətinə sadiqik".

1994-cü ildə atəşkəs əldə olunduqdan sonra Ulu Öndər Heydər Əliyevin xüsusi diqqət ayırdığı sahələrdən biri ordu quruculuğu dövlətimizin başçısı İlham Əliyevin güclü dövlət konsepsiyasinin tərkib hissəsi oldu. Peşəkar hərbi qulluqçuların hazırlanması ordunun maddi-texniki təminatının gücləndirilməsi istiqamətində bütün lazımi addımlar atıldı. İllər ötdükcə Azərbaycanın artan iqtisadi imkanları fonunda ordumuzun arsenalı dünyanın ən qabaqcıl ölkələrinin istehsalı olan müasir hərbi texnikalarla daha da gücləndirildi. Müxtəlif ölkələrlə hərbi əməkdaşlığa dair sənədlər imzalandı, hərbi qulluqçularımızın xarici dövlətlərdə müxtəlif təcrübə proqramlarında iştirakı təmin edildi. Bununla yanaşı, Prezident İlham Əliyevin 2005-ci ildə imzaladığı Sərəncama əsasən, Müdafiə Sənayesi Nazirliyi yaradıldı. Bu, Azərbaycan Silahlı Qüvvələrinin lazımi müasir silah və hərbi texnika ilə təmin etmək baxımından çox mühüm önəmə malik addım idi.

Qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bu öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycan dövlətinin bugünkü reallıqlarıdır. 23 il əvvəl 2003-cü il 15 oktyabr tarixində Azərbaycan xalqı müdrik seçim edərək Ulu Öndərimizin siyasi kursuna Dahi Şəxsiyyətin layiqli davamçısı İlham Əliyevə səs verərək Azərbaycan Respublikasının Prezidenti seçdi. Bu siyasi kursa sadiqliyini nümayiş etdirən xalqımız Ulu Öndərə sevgisini və inamını bir daha sübut etdi. Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi. Yeni əsrin yeni lideri İlham Əliyev bu 23 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirdi.

Ulu Öndərin "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" kəlamı üzərində qurulan siyasət nəticəsində ötən 23 il ərzində misilsiz uğurlara imza atılıb. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə əsası qoyulan neft strategiyası sonrakı illərdə də davam etdirilib. Azərbaycan Respublikasının qazandığı nailiyyətlərinin təməlində məhz bu strategiya dayanır. 2006-cı ildə Bakı Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi misilsiz layihələr reallaşdırılıb. 2018-ci ildə Avropanın enerji təhlükəsizliyində böyük rola malik Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin və 2020-ci ildə TAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilib. Həmçinin "Əsrin müqaviləsi" 2050-ci ilə qədər uzadılıb.

Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb. Bakı-Tbilisi-Qars dəmiryolu istifadəyə verilib. Azərbaycanın Rusiya, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları çəkilib. İşğaldan azad olunmuş Füzuli və Zəngilan şəhərlərində, Laçın rayonunda hava limanlarının açılması, Qarabağ bölgəsini sənaye mərkəzinə çevirəcək Ağdamda on minlərlə sakin üçün nəzərdə tutulmuş tamamilə yeni şəhərin inşa olunması və keçmiş məcburi köçkünlərin “Böyük Qayıdış” proqramı çərçivəsində öz ata-baba yurdlarına köçürülməsi bunların bariz nümunəsidir.

**(Ardı 8-ci səhifədə)**

*Hərbi terminlər*

# Neytral zona



Neytral zona - qarşıduran və ya döyüşən tərəflərin mövqeləri arasında yerləşən, bir qayda olaraq heç bir tərəfin daimi hərbi nəzarətində olmayan əraziyə deyilir. Bu zona tərəflər arasında müəyyən məsafə yaradaraq birbaşa təmasın qarşısını almaq, gərginliyi azaltmaq və mümkün silahlı insidentlərin başvermə ehtimalını minimuma endirmək məqsədi daşıyır.

Hərbi tarixə nəzər saldıqda görürük ki, neytral zonalar müxtəlif müharibələr və münaqişələr zamanı tətbiq olunub. Xüsusilə atəşkəs razılaşmalarından sonra tərəflərin təhlükəsizliyini təmin etmək üçün onların mövqeləri arasında müəyyən məsafə saxlanılıb və bu ərazilər neytral zona kimi müəyyən edilib. Bəzi hallarda həmin zonalara beynəlxalq təşkilatların müşahidəçiləri və ya sülhməramlı qüvvələri nəzarət edib.

Neytral zonanın əsas məqsədi qarşı tərəflər arasında gözlənilməz toqquşmaların qarşısını almaqdır. Çünki hərbi təcrübə göstərir ki, mövqelərin bir-birinə yaxın yerləşməsi kiçik insidentlərin belə genişmiqyaslı qarşıdurmaya çevrilməsinə səbəb ola bilər. Bu baxımdan neytral zona "təhlükəsizlik buferi" rolunu oynayır.

Lakin neytral zona hər zaman təhlükəsiz ərazi demək deyil. Belə zonalarda minalar, mühəndis maneələri, müşahidə vasitələri və digər hərbi təhlükələr mövcud ola bilər. Buna görə də həmin ərazilərdə hərəkət xüsusi hazırlıq və ehtiyat tələb edir. Hərbi qulluqçular üçün neytral zonanın xüsusiyyətlərini bilmək taktiki hazırlığın vacib elementlərindən hesab olunur.

Müasir dövrdə neytral zona anlayışı yalnız hərbi əməliyyatlarla məhdudlaşmır. Bu termin beynəlxalq təhlükəsizlik sistemində də mühüm yer tutur. Münaqişələrin dinc yolla tənzimlənməsi prosesində neytral zonalar etimad mühitinin formalaşdırılmasına, sabitliyin qorunmasına və danışıqlar üçün əlverişli şəraitin yaradılmasına xidmət edir.

Azərbaycan Ordusunun hərbi hazırlıq sistemində də beynəlxalq hərbi terminologiyada istifadə olunan anlayışların öyrənilməsi mühüm əhəmiyyət daşıyır. Neytral zona anlayışının mahiyyətini bilmək döyüş əməliyyatlarının planlaşdırılması, təhlükəsizlik tədbirlərinin təşkili və vəziyyətin düzgün qiymətləndirilməsi baxımından vacibdir.

**Hazırladı:**
**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(Əvvəli 7-ci səhifədə)**

Bu gün Azərbaycan dövləti həm də dünyada sayı məhdud olan kosmik ölkələr sırasındadır. 2013-cü ildə ilk telekommunikasiya peykimiz "Azerspace-1", 2014-cü ildə yer səthini müşahidə edən "Azersky" peyki, 2018-ci ildə isə daha bir telekommunikasiya peyki "Azerspace-2" orbitə çıxarılıb.

Bu illər ərzində beynəlxalq təşkilatlarla da səmərəli əməkdaşlıq əlaqələri qurması ölkəmizin beynəlxalq imicinin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Bu sıraya Türk Şurası, MDB, ATƏT, İƏT və bu kimi digər qurumlarla səmərəli əməkdaşlıq əlaqələri də daxildir.

Milli məsələlərdə güzəştə getməyən dövlətimizin başçısı İlham Əliyev hakimiyyətə gələndən Zəfər gününə kimi Qarabağ məsələsində də heç bir güzəştə getmədi, Ermənistana, onun havadarlarına qarşı qətiyyətlə mübarizə apararaq Azərbaycanın haqq səsini dünyaya çatdırdı. O, siyasi, hərbi lider kimi qətiyyətlə, yorulmadan həm siyasi arenada, həm də döyüş meydanında vuruşaraq Zəfər qazanan, 30 ilə yaxın işğal altında olan Azərbaycan torpaqlarını azad edən, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa edən böyük sərkərdə kimi tarixə düşdü. Xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "güclü dövlət" konsepsiyasının əsasını üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti təşkil edir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Ordusunu yaratdı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev isə onu dünyanın ən güclüləri sırasına çıxardı. Bu ordu qarşısında duran tarixi missiyanı, yaradıcısı olan xalqımızın Ümummilli Lideri Heydər Əliyevin arzusunu və vəsiyyətini yerinə yetirdi. Odur ki, bu gün Ulu Öndər Heydər Əliyevin ruhu rahatdır və bu qələbə həm də Ulu Öndərin ideyalarının təntənəsidir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətində əldə edilən hər bir uğur Ulu Öndər Heydər Əliyevin zəkasının təcəssümü, onun irsən qoyub getdiyi milli tərəqqi ideyalarının təzahürüdür.

**İdeoloji Təminat İdarəsi**

# Xəbərlər: hadisələr, faktlar



### Qazaxıstan HDQ hərbi qulluqçuları Xəzər akvatoriyasında döyüş təlim tapşırıqlarını yerinə yetiriblər



Xəzər dənizinin mərkəzi hissəsində Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin (HDQ) şəxsi heyəti gəmilərin idarə olunması və dəniz təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bir sıra döyüş təlim tapşırıqlarını yerinə yetirib.

Qazaxıstan Respublikası Müdafiə Nazirliyi xəbər verir ki, hərbi qulluqçular vaxta növbələrinin bir hissəsi kimi çalışıb və naviqasiya növbələrini müstəqil şəkildə saxlamaq bacarıqlarını möhkəmləndiriblər.

"Tədbirlər peşəkar səriştənin, naviqasiya bacarıqlarının və xidmətlərinin təşkilinin təkmilləşdirilməsinə yönəlib", - deyə "Oral" raket və artilleriya gəmisinin naviqasiya döyüş bölməsinin komandiri baş leytenant Asılbek Orazbayev izah edib.

Dəniz əməliyyat şəraitinin xüsusiyyətlərinin öyrənilməsinə, naviqasiya metodlarının praktik tətbiqinə və dəyişən vəziyyətlə bağlı marşrut qrafiki bacarıqlarının, habelə kurs tənzimləmələrinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirilib.

Praktiki təlim faktiki döyüş əməliyyatlarına mümkün qədər yaxın şəraitdə keçirilib.

Naviqasiya təlimi dəniz mütəxəssislərinin döyüş hazırlığının əsas elementidir və şəxsi heyətin yüksək hazırlığının saxlanılmasını təmin edir, dəniz sərhədlərinin qorunması üçün tapşırıqların effektiv şəkildə yerinə yetirilməsinə şərait yaradır, həmçinin Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin döyüş potensialını gücləndirir.

### Kəşmirin Pakistanın nəzarətində olan hissəsində baş verən qəzada 22 pakistanlı hərbçi həlak olub



Kəşmirin Pakistanın nəzarətində olan hissəsində baş verən helikopter qəzasında 22 pakistanlı hərbçi, o cümlədən 3 yüksəkrütbəli zabit həlak olub.

Pakistanın təhlükəsizlik mənbələri cümə axşamı bildiriblər ki, iyunun 10-da Pakistanın idarə etdiyi Kəşmirdə hərbi helikopterin qəzaya uğraması nəticəsində üç yüksəkrütbəli zabit də daxil olmaqla 22 hərbçi həlak olub.

Mənbələr çərşənbə günü Müzəffərabad yaxınlığında texniki nasazlıq səbəbindən uçuş zamanı qəzaya uğrayan Pakistan ordusuna məxsus Mi-17 helikopteri ilə bağlı hadisə ilə əlaqədar bildiriblər ki, araşdırma davam edir.

Qəzadan sonra Pakistan Silahlı Qüvvələrinin media və ictimaiyyətlə əlaqələr qanadı olan Xidmətlərarası ictimaiyyətlə əlaqələr (ISPR) şöbəsi göyərtədəki bütün şəxsi heyətin öldüyünü bildirib.

Helikopter Pakistan ordusunun aviasiya əməliyyatlarının bir hissəsi idi və Azad Cammu və Kəşmir kimi tanınan dağlıq bölgəsində uçuşdan qısa müddət sonra qəzaya uğrayıb.

İSPR əlavə edib ki, qəzaya səbəb olan texniki nasazlığın dəqiq səbəbini istintaq qrupu müəyyən edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Dünya çempionatına Mexikodakı təntənəli açılış mərasimi ilə start verilib



Futbol üzrə dünya çempionatının açılış mərasimi keçirilib.

Tədbir Meksikanın paytaxtı Mexikoda yerləşən "Asteka" stadionunda təşkil olunub.

Mərasimin bədii hissəsində dünya şöhrətli müğənni Şakira, həmçinin David Getta, EJAE, Meqan Covon Rut Pit və Andrea Boçelli çıxış ediblər.

Meksika - Cənubi Afrika Respublikası oyunu öncəsi dünya çempionatının səfiri Salma Hayek Pinault meydana çıxaraq dünyanın müxtəlif ölkələrindən olan azarkeşləri salamlayıb. O, İspan dilində çıxış edərək Meksikanın ABŞ və Kanada ilə birlikdə mundiala ev sahibliyi etməsindən qürur duyduqlarını bildirib.

Daha sonra dünya çempionatında iştirak edən 48 ölkənin dövlət bayraqlarının paradı təşkil olunub.

Açılış mərasimindən sonra Meksika və Cənubi Afrika Respublikası yığmaları arasında mundialın ilk oyunu start götürüb.

Dünya çempionatına ABŞ, Kanada və Meksika birgə ev sahibliyi edir. FIFA digər iki ev sahibi ölkədə də ilk qarşılaşmalardan əvvəl açılış tədbirlərinin keçirilməsini planlaşdırır.

### DÇ-2026: Açılış oyununda 2 qol, 3 qırmızı vərəqə və ev sahibi Meksikanın qələbəsi



Tarixdə ilk dəfə üç ölkənin - ABŞ, Kanada və Meksikanın ev sahibliyi etdiyi futbol üzrə dünya çempionatı start götürüb.

Mundialın açılış matçı A qrupunda Meksika və Cənubi Afrika Respublikası yığmaları arasında baş tutub.

Paytaxt Mexikodakı "Asteka" stadionunda təşkil olunan qarşılaşma ev sahibi komandanın 2:0 hesablı qələbəsi ilə başa çatıb. Qolları Xulian Kinyones və Raul Ximenes vurublar.

Qrupun ikinci oyununda Cənubi Koreya millisi Çexiya yığması ilə qarşılaşıb. Görüş Asiya təmsilçisinin 2:1 heablı qələbəsi ilə başa çatıb.

Matçda hər üç qol ikinci hissədə vurulub. 59-cu dəqiqədə Çexiya millisinin müdafiəçisi Ladislav Kreyçi komandasını önə keçirib. Cənubi koreyalılar bu qola 67-ci dəqiqədə cavab veriblər. Xvan İn-Bom tarazlığı bərpa edib - 1:1. Bundan 10 dəqiqə sonra çexlər ikinci dəfə fərqlənsələr də, ofsayd səbəbindən qol qeydə alınmayıb. Oyunda son nöqtəni isə O Hön Qü qoyub. Türkiyə "Beşiktaş"ının hücumçusu 80-ci dəqiqədə fərqlənməklə, Cənubi Koreya yığmasına əzmkar qələbə qazandırıb.

Dünya çempionatına iyulun 19-da yekun vurulacaq.

**AZƏRTAC-ın materialları əsasında**

Rüstəmov Raqif Zahid oğluna verilmiş MN № 0059546 nömrəli və Əsgərov Sənan Fərhad oğluna verilmiş AD № 0030315 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin
Hərbi Nəşriyyatı üzrə növbətçi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Hüsniyyə NƏSİROVA

Lisenziya № 361
Sifariş № 575
Nüsxə 3653